**Sima İSMAYILOVA,**
*Bakı Dövlət Universiteti*
*Biblilqrafiyaşünaslıq kafedrasının*
*baş müəllimi*

## GECİKMİŞ MİNNƏTDARLIQ

Əziz Abuzər müəllim! Sizin haqqınızda yazılan ən gözəl sözlərdən hörülmüş gül çələnginə mənim də ürəkdən gələn səmimi sözlərimdən hörülən gülləri əlavə etmək istəyirəm.

Əziz və hörmətli Abuzər müəllim! Siz Azərbaycan kitabxanşünaslıq-biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin canlı ensiklopediyasısınız. Siz həm də bu elmlərin nəzəriyyəsini, tarixini, metodologiyasını, müasir inkişaf istiqamətlərini yaratmış görkəmli alimsiniz.

Sizin çoxsaylı tələbələrinizdən biri də mən olmuşam. İstər tələbə olarkən təyinat bölgüsü zamanı, istərsə də biblioqrafiyaşünaslıq kafedrasına dəvət edilərkən, müəllim seçilərkən həmişə Sizin təmənnasız köməyinizi hiss etmişəm. Ancaq bir dəfə də olsa mən Sizə öz minnətdarlığımı bildirə bilməmişəm. Bütün uğurlarımda Sizin köməyiniz olub, köməyinizi, mənim üçün etdiklərinizi heç vaxt dilinizə gətirməmisiniz. Sizin şəxsiyyətiniz istər universitet daxili, istərsə də universitetdən kənarda dayağımız olub. Həmişə ciddi, zəhmli görkəminiz bizim öz işimizə daha məsuliyyətlə yanaşmağımıza səbəb olub. Həmişə Sizi vüqarlı, uca bir dağ sanmışam. Sizi öz yetirmələrinə qayğı və xeyirxah münasibət göstərən müdrik bir ağsaqqal kimi görmüşük. Sözü kəsərli, keçərli bir şəxsiyyət kimi ümidi hər yerdən kəsilən Sizə pənah gətirib, hər an Sizin ağıllı söhbətlərinizə, dəyərli məsləhətlərinizə ehtiyacımız olub.

80-ci illərin ortaları idi. Universitetin qəbul komissiyasında işləyərkən bizə istirahət günündə Qubaya bir günlük dincəlməyə getməyə icazə vermişdilər. Tədbirdə uni-

versitetin başqa fakültələrinin nümayəndələri, o cümlədən bizim fakültədən mən və həmkarım mərhum Telman Alıyev də var idi. Yol böyu avtobus süratlə getdiyindən mən həyəcanla Telmana- «Əgər bizim başımıza bir iş gəlsə, Abuzər müəllim nə edər?», deyə sualıma həmkarım və başqaları çox qəribə tərzdə güldülər (işin qızğın vaxtı və seyfin açarı bizdə *olduğuna və həm də öz taleyimiz haqqında deyil, iş haqqında* düşündüyümə görə). Bu mənim Sizə olan dərin hörmət və sədaqətimin, öz işimə olan məsuliyyətimin təcəssümi idi.

Bu gün baxmayaraq ki mən, neçə illərdir müəllim olsam da, yenə də Sizin yanınızda özümü tələbə kimi hiss edirəm. Sizin kimi ağsaqqal, müdrik müəllimlərimdən öyrəndiklərimi öz tələbələrimə həvəslə öyrətməyə çalışıram.

«Tarix o adamları böyük hesab edir ki, onlar ümumi məqsəd üçün çalışmış, özləri isə nəcib adamlar olmuşlar».

Xeyirxah, cəsarətli, ədalətli sözü keçən bir insan kimi Siz ixtisasımızın bu günü və gələcəyi üçün yorulmadan çalışırsınız. Sizə bu yolda uğurlar və möhkəm can sağlığı arzulayaraq 75 illik yubileyinizi ürəkdən təbrik edirəm, . Əziz müəllimim!....